**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# CƏNUBİ QAFQAZDA MÜNAQİŞƏLƏR: ABŞ-ın MARAQLARI

İxtisas: 5901.01 – Beynəlxalq münasibətlər

Elm sahəsi: Siyasi elmlər

İddiaçı: **Aysel Möhübbət qızı Bağırova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq
üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2022**

Dissertasiya işi AMEA Hüquq və İnsan Haqları İnstitutunun Beynəlxalq münasibətlər və insan hüquqları şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** Siyasi elmlər doktoru, professor
**Hicran Kamran qızı Hüseynova**

**Rəsmi opponentlər:** Siyasi elmlər doktoru, professor.əv
**Elşad Mirbəşir oğlu**

Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
**Rəcəb Zakir oğlu Rəhimli**

Siyasi elmlər üzrə fəlsəfə doktoru
**Eldar Arif oğlu Cəfərov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: Akademik
**Urxan Kazım oğlu Ələkbərov**

Dissertasiya şurasının elmi katibi: siyasi elmlər doktoru, prof.
**Ziyafət Ziya qızı Həbibova**

Elmi seminarın sədri: siyasi elmlər doktoru, prof. əv.
**Adil Mirabdulla oğlu Mirabdullayev**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi**. XX yüzilliyin 80-ci illərinin ortalarından etibarən Sovet İttifaqında tənəzzülün ilk elementləri aydın şəkildə özünü göstərməyə başladı. Sosial-iqtisadi tənəzzül öz növbəsində ittifaq respublikalarda təlatümlərə səbəb olurdu. Bu cür gərginliklər həm də millətlərarası münasibətləri kəskinləşdirirdi. Sovet İttifaqı rəhbərliyi, xüsusən M.Qorbaçovun hakimiyyətə gəlməsindən sonra millətlərarası münasibətlərin tənzimlənməsində ciddi və ardıcıl səhvlərə yol verirdi. Bəzi respublikalarda münaqişə ocaqları SSRİ-nin qurulmasından öncə də olmuş, ittifaqın qurulmasından sonra isə həll edilmək yerinə süni şəkildə dondurulmuş və ya güc hesabına latent mərhələyə transformasiya etdirilmişdi. Bəzi regionlarda isə münaqişə ocaqlarını məhz Sovetlərin yürütdükləri məkrli siyasət meydana çıxarmışdı. Belə şəraitdən Sovet İttifaqının əsas geosiyasi rəqibi – Amerika Birləşmiş Ştatları istifadə etməyə çalışırdı. XX yüzilliyin 80-ci illərinin sonu – 90-cı illərinin əvvəllərindəki prosesləri analiz edərkən maraqlı bir dialektika ortaya çıxır. Aydın olur ki, millətlərarası münasibətlərin kəskinləşməsi Sovet İttifaqının süqutuna gətirib çıxardığı kimi, SSRİ-nin süqutu da öz növbəsində millətlərarası münasibətlərin kəskinləşməsinə, münaqişələrin alovlanmasına rəvac vermişdi.

Cənubi Qafqazda vəziyyət daha gərgin idi. Burada həm ittifaqın qurulmasına qədər mövcud olmuş münaqişə ocaqları, həm də ittifaqın qurulmasından sonra meydana çıxmış bir sıra problemlər var idi. Məhz bunun nəticəsi idi ki, ərazicə elə də böyük olmayan Cənubi Qafqazda üç aktiv münaqişə zonası meydana çıxdı: Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi nəticəsində Ermənistan-Azərbaycan münaqişəsi, Gürcüstanda gürcü-abxaz və gürcü-osetin münaqişələri. Sadalanan üç münaqişə zonası SSRİ-nin qurulmasına qədərki dövrdə də qaynar nöqtələr olmuşdu.

İkiqütblü sistemdən çoxqütblü sistemə transformasiya dövründə özünün bütün dünyada hegemonluğunu bərqərar etməyə, o cümlədən post-sovet məkanının bir parçası olan Cənubi Qafqazda maraqlarını reallaşdırmağa çalışan ABŞ-ın regiondakı münaqişələrə

yanaşmasının öyrənilməsi, onların tənzimlənməsindəki rolunun tədqiqi həm elmi, həm də siyasi baxımdan aktualdır. Bu həm Cənubi Qafqaz regionundakı münaqişələrin dinc yolla tənzimlənməsi prosesində ABŞ-ın rolunu başa düşməyə, həm də onun mövqeyinə hansı amillərin təsir etdiyini müəyyənləşdirməyə imkan verə bilər. ABŞ-ın bölgədəki münaqişələrlə bağlı mövqeyi və açıqlamaları münaqişə iştirakçısı olan dövlətlərlə münasibətlərə də əhəmiyyətli təsir göstərir. Bu baxımdan mövzunun öyrənilməsi region dövlətlərinin ABŞ-la perspektiv münasibətlərinin necə olacağının proqnozlaşdırılmasına şərait yaradar. Qeyd etmək lazımdır ki, ABŞ Cənubi Qafqazdakı münaqişələrdən yalnız Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənməsi prosesində rəsmi vasitəçi statusunu daşımışdır. Lakin fövqəldövlət olaraq ABŞ özünün və beynəlxalq təşkilatların imkanları çərçivəsində qətiyyətli yanaşma nümayiş etdirməmişdir. Halbuki təkcə Ermənistan-Azərbaycan münaqişəsinin deyil, Qafqazda bütün münaqişələrin həllində ABŞ-a böyük ümidlər bəslənilmişdir. Bu barədə Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev demişdi: *"...Bütün münaqişələrin, eləcə də Qafqazda gedən münaqişələrin aradan qaldırılmasında ABŞ beynəlxalq təşkilatların, o cümlədən ATƏM-in və Minsk qrupunun fəaliyyətində daha yaxından iştirak etməlidir. Belə hesab edirəm ki, bu proseslərdə ABŞ-ın iştirakı fayda gətirəcəkdir".*[1]

Baxmayaraq ki, Ermənistan-Azərbaycan münaqişəsi başa çatmış, Müzəffər Ali Baş Komandan İlham Əliyevin və rəşadətli ordumuzun sayəsində Azərbaycan öz ərazi bütövlüyünü təmin etmişdir, ABŞ rəhbərliyi postmünaqişə dövründə regiondakı nüfuzunu yenidən gücləndirmək, sülh və tənzimlənmə prosesində daha yaxından iştirak etmək, təsir imkanlarını saxlamaq üçün müəyyən addımlar atır. Bu baxımdan, Cənubi Qafqazdakı münaqişələrdə ABŞ-ın maraqlarının tədqiq edilməsi nəzəri və praktik baxımdan olduqca vacibdir.

Digər iki münaqişədə - Gürcüstanın Abxaziya və Tsxinvali regionlarındakı münaqişələrdə isə ABŞ heç bir zaman mediator

---

[1] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Ə.Əliyev. - Bakı: Azərnəşr, c. 2. - 1997. –s. 318-319.

rolunu öz üzərinə götürməmişdi. Bunun obyektiv və subyektiv səbəbləri olmuşdur. Ermənistan-Azərbaycan münaqişəsi ilə müqayisədə ABŞ gürcü-abxaz və gürcü-osetin münaqişələrinin tənzimlənməsi prosesində zəif iştirak etmişdir. Buna səbəb olan amillərin elmi baxımdan aparılan təhlillər əsasında aydınlaşdırılması da vacib məqamlardandır.

Cənubi Qafqazdakı münaqişələrin ABŞ-ın maraqları kontekstində öyrənilməsinə dair tədqiqatlar çox azdır və adətən bu cür əsərlər məqalə və kiçik həcmli elmi məruzələrlə məhdudlaşır.

Azərbaycanın ABŞ-da ilk fövqəladə və səlahiyyətli səfiri H.Paşayev ABŞ-ın Cənubi Qafqaz regionunda yürütdüyü siyasəti yaxından müşahidə etmək imkanına malik olmuş şəxslərdəndir. Onun tədqiqatları ABŞ-ın Qafqaz geosiyasi məkanına, buradakı ölkələrə və münaqişələrə yanaşmasının öyrənilməsi baxımından qiymətli mənbələr hesab edilə bilər.[2]

H.Hüseynova bir sıra kitab və məqalələrində Qafqazdakı münaqişələrin regiondaxili və regiondankənar inteqrasiya proseslərinə yaratdığı maneələrdən də bəhs etmişdir.[3] Müəllif ABŞ-ın fəal iştirakçısı olduğu ATƏT və NATO kimi təşkilatların Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənməsində roluna da toxunmuş, bu təşkilatların məsələyə yanaşmasında əsas məqamları müəyyənləşdirmişdir.

İ.Hüseynovanın əsəri Qafqazda münaqişələr, etnik separatizm, milli münaqişə ocaqlarının qızışdırılması, münaqişələrin həlli təşəbbüsləri, Abxaziya, Cənubi Osetiya və Çeçenistan problemlərinin kompleks şəkildə tədqiq olunduğu ilk fundamental əsərlərdən biri hesab edilə bilər. Müəllif Ermənistan-Azərbaycan münaqişəsini də tarixi kontekstdə təhlil etmiş, onu Cənubi Qafqazda sülhə və təhlükəsizliyə əsas təhdidlərdən biri kimi qiymətləndirmişdir. Onun bəzi əsərlərində Cənubi Qafqazdakı

---

[2] Paşayev, H. Bir səfirin manifesti / H.Paşayev. - Bakı: Şərq-Qərb, - 2007. - 248 s.; ABŞ-la əməkdaşlığımızın vacib tərkib hissəsi // - Bakı: Dirçəliş - XXI əsr, - 2003. № 66, - s. 95-100.

[3] Hüseynova, H.K. Müasir inteqrasiya prosesləri. Dərslik. / H.K.Hüseynova. - Bakı, -2010. - 300 s.; Azərbaycan Avropa inteqrasiya prosesləri sistemində: / siyasi elmlər doktoru dis. / - Bakı, - 2001. – 314 s.

münaqişələrin tarixi kökləri, etnik və ərazi mübahisələri kontekstində meydana çıxan problemlər geniş şəkildə təhlil edilmişdir.[4]

Bəllidir ki, ABŞ-ın Qafqazdakı münaqişələrə yanaşmasını Rusiya amili nəzərə alınmadan dəqiqliklə qiymətləndirmək mümkün deyildir. Bu cəhətdən A.Mirabdullayevin əsəri xüsusən əhəmiyyətli tədqiqatlardan biri kimi qeyd olunmalıdır. Müəllif Rusiyanın Cənubi Qafqazda geostrateji maraqlarının mahiyyətini və məqsədlərini dərindən təhlil etmiş, Azərbaycan və Gürcüstan ərazilərində nizamlanmamış münaqişələrin Rusiyanın kənar qüvvələri regiona buraxması üçün əhəmiyyətli vasitələr olduğunu qeyd edir. Bundan əlavə müəllifin bir sıra məqalələri də Cənubi Qafqazdakı münaqişələrin mahiyyətinin öyrənilməsi baxımından əhəmiyyətlidir.[5]

M.Qasımlının bir sıra əsərləri ABŞ-ın Cənubi Qafqaz siyasətinin öyrənilməsi, xüsusən bu dövlətin Ermənistanın işğalı nəticəsində yaranmış Ermənistan-Azərbaycan münaqişəsinə yanaşmasının öyrənilməsi baxımından əhəmiyyətlidir. Burada Gürcüstandakı real və potensial münaqişə ocaqlarının meydana çıxma tarixi, bu prosesdə erməni terror-siyasi təşkilatları və Ermənistanın iştirakı məsələləri tədqiq edilmişdir.[6]

E.Əhmədovun araşdırmasında Ermənistan-Azərbaycan münaqişəsi qəbul edilmiş sənədlər üzrə təhlil edilmiş, məsələyə ABŞ-

---

[4] Hüseynova, İ.M. Heydər Əliyev və Qafqazda sülh prosesi / İ.M.Hüseynova. - Bakı: Çaşıoğlu, - 2008. - 672 s.; Гусейнова, И.М. История народов Кавказа (новый и новейший периоды). Баку: Элм ве техсил, - 2006, -603 с.

[5] Mirabdullayev, A.M. Rusiyanın postsovet məkanında geostrategiyası / A.Mirabdullayev. - Bakı: Elm, - 2008. - 332 s.; Abxaziya və Cənubi Osetiya münaqişələrinin Rusiya-Gürcüstan münasibətlərinə təsiri haqqında // - Bakı: Dirçəliş - XXI əsr, - 2008, №126-127, - s. 150-159.

[6] Qasımlı, M.C. Azərbaycan parlamentarizmi tarixi: [2 cilddə] /M.Qasımlı, B.Muradova. - Bakı: Mütərcim, c. 2, - 2018, - 680 s.

Qasımlı, M.C. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003): [2 cilddə] / M.C.Qasımlı. - Bakı: Mütərcim, - c. I. - 2015. - 648 s.; Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003): [2 cilddə] / M.C.Qasımlı. - Bakı: Mütərcim, - c. II. - 2015. - 640 s.; Qasımlı, M.C. Gürcüstanda erməni təşkilatlarının fəaliyyəti / M.C.Qasımlı, V.Ömərov, N.Ə.Məmmədova və b. Bakı: RS Poliqraf MMC, - 2020. - 608 s.

ın da iştirak etdiyi bir sıra beynəlxalq təşkilatların yanaşması əksini tapmışdır.[7]

Digər bir azərbaycanlı müəllif A.Piriyevin əsərində ABŞ-ın Qafqaz regionunda geosiyasi məqsədləri ilə bağlı dərin təhlillər aparılmışdır. Müəllif doğru olaraq qeyd edir ki, ABŞ Cənubi Qafqazda mövqeyini gücləndirmək üçün Rusiyanın mövqelərini zəiflətmək istiqamətində siyasət yürütmüş, hətta bəzi hallarda Şimali Qafqazda da Rusiyanın təsirini azaltmaq üçün addımlar atmışdır.[8]

E.Nəsibovun monoqrafiyasında ABŞ-ın geosiyasətində Qafqaz bölgəsinin yeri, Gürcüstan və Ermənistandakı geostrateji maraqları, Rusiya və İranla strateji maraqlarının toqquşmasında hərbi-siyasi və təhlükəsizlik amilləri tədqiq olunmuşdur.[9]

R.Sevdimalıyevin əsərlərində Cənubi Qafqazda ermənilərin iştirakı ilə yaranan münaqişələrdə terror təşkilatlarının iştirakı diqqət mərkəzində saxlanılmışdır.[10]

A.Güləliyevanın əsərlərində ATƏT-in Ermənistan-Azərbaycan münaqişəsinin həllində sülhyaratma fəaliyyəti, ABŞ-ın həmsədr ölkə kimi mövqeyi, xarici lobbilərin ABŞ siyasətinə təsirləri tədqiq edilmişdir.[11]

Son illərdə E.Kəlbizadənin Qafqaz regionunda münaqişələr, qonşu və böyük dövlətlərin Qafqaz siyasətinin region ölkələrinə təsirləri ilə bağlı tədqiqatları diqqəti cəlb edir. Müəllifin bir sıra kitab və məqalələrində xüsusən gürcü-abxaz və gürcü-osetin münaqişələri,

---

[7] Əhmədov, E. Ermənistanın Azərbaycana təcavüzü: Sənədlər və materiallar. I kitab / E.Əhmədov. - Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, - 2015. - 324 s.

[8] Piriyev, A.M. Siyasi strategiya və milli təhlükəsizlik problemi / A.M.Piriyev. - Bakı: BDU, - 2002. - 534 s.

[9] Nəsibov, E.M. ABŞ və Türkiyənin Qafqaz geosiyasi regionunda strateji maraqları və Azərbaycan Respublikası / E.Nəsibov. Bakı: Çıraq, - 2006. - 314 s.

[10] Севдималиев, Р.М. Международный терроризм - глобальная проблема современности /Р.М.Севдималиев. - Баку: Элм, - 2004. - 311 с.

[11] Güləliyeva, A.A. Azərbaycan Respublikasının Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatında iştirakı:/siyasi elmlər namizədi dis./ - Bakı, - 2007. -206 s.

Gürcüstanda gedən ictimai-siyasi proseslərdə ABŞ-ın iştirakı ilə bağlı məsələlərə toxunulmuşdur.[12]

Bölgədəki münaqişələrin etnik xarakterini nəzərə aldıqda bu münaqişələr kontekstində informasiya qarşıdurmasının dərk edilməsi problemlərin dərk edilməsi üçün önəmli məqamdır. Məlumdur ki, Ermənistanın və dünya erməniliyinin Azərbaycana qarşı əsas təbliğat apardığı ölkələrdən biri məhz ABŞ-dır. Bu baxımdan N.Süleymanlının monoqrafiyası ən əhəmiyyətli əsərlərdən biri kimi qeyd olunmalıdır.[13]

S.Həmidov, Ə.Həbibbəyli, Z.Həbibova, V.Ömərov, kimi bir sıra digər müəlliflərin bəzi məqalə və kitabları mövzunun tədqiqi baxımından əhəmiyyətlidir.[14]

X.Heydərovanın dissertasiya işində yeni dünya düzəni şəraitində Cənubi Qafqazda yeni geosiyasi reallıqlar, ABŞ-ın regional siyasətinin formalaşmasında geosiyasi amillər, ABŞ-Azərbaycan Respublikası münasibətlərinin əsas inkişaf istiqamətləri, Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın səviyyəsi təhlil edilmişdir. Dissertasiya işinin mövzusu

---

[12] Kəlbizadə, E.H. Cənubi Qafqazda milli münaqişələrdən mümkün istifadə planları və regionda marağı olan dövlətlərin mövqeyi // -Naxçıvan: AMEA Naxçıvan Bölməsinin Xəbərləri. İctimai və humanitar elmlər seriyası, - 2013. № 1, - s. 48-56.; Ermənilərin Abxaziyada məkrli niyyətləri və hədəfi: "Qaradənizsahili Ermənistan" // Xalq qəzeti. - 2020, 16 oktyabr. - s.11.; Gürcüstanın inzibati-ərazi quruluşunda hüquqi və faktiki dəyişikliklər və ermənilərin "kripto-miatsum siyasəti" // - Bakı: Gənc tədqiqatçı. - 2019. №2, - s. 234-251.;

[13] Süleymanlı, N.M. Dağlıq Qarabağ münaqişəsinin informasiya modeli / N.M.Süleymanlı. - Bakı: Hərbu nəşriyyatı, - 2011. - 280 s.

[14] Həmidov, S.S. Dağlıq Qarabağ münaqişəsi 2020-ci ildə: sülh, yoxsa müharibə? // -Bakı: Dirçəliş - XXI əsr, - 2011, №153-154, - s. 146-159; Həbibbəyli, Ə.İ. Ermənilər Qazfqazda daha bir separatist bölgə yaradır - Gürcüstanın ərazi bütövlüyü təhlükədə - araşdırma: [Elektron resurs] / Strateq, - Bakı, - 2017. URL: http://strateq.az/manshet/220283/ermənilər-qafqazda-daha-bir-separatist-bol-gə-yaradir.html/; Həbibova, Z. ABŞ Prezidentinin ermənilərə "quyu qazan" populizmi // Azərbaycan. -2021, 5 may. - s.10; Ömərov, V. və b. Gürcüstan: inzibati-ərazi quruluşu, idarəçiliyi və demoqrafiyası / V.Ömərov, E.Kəlbizadə, S.Həbibbəyli, N.Məmmədova. K.Salayev. - Bakı: MTM Innovation MMC.- 2019. - 320 s.;

əsasən Azərbaycan Respublikası ilə məhdudlaşdığı üçün regiondakı digər münaqişələrə diqqət yetirilməmişdir.[15]

B.Hüseynin dissertasiya işində XX əsrin 90-cı illərində regionda geosiyasi vəziyyət təhlil olunmuş, ABŞ-ın region siyasətində enerji amili məsələsinə toxunulmuşdur. Müəllif dissertasiya işində Cənubi Qafqaz uğrunda ABŞ-Rusiya rəqabəti məsələlərindən də bəhs etmişdir.[16]

B.Bayramovanın dissertasiya işində Qarabağ münaqişəsinin həlli istiqamətində ABŞ-ın mövqeyi məsələsinə toxunulmuşdur.[17] Ş.Qurbanovanın dissertasiya işi 1991-2010-cu illərdə post-sovet məkanında ABŞ-Rusiya rəqabətinin geosiyasi proseslərə təsirinin öyrənilməsi baxımından əhəmiyyətlidir. Dissertasiya işinin ikinci fəslinin bir paraqrafı birbaşa olaraq Cənubi Qafqaz uğrunda ABŞ-Rusiya rəqabətinə həsr olunmuşdur.[18]

Rusdilli müəlliflərdən N.A.Nartov, A.Duqin, A.Utkin, E.B.Anaşkina, O.N.Barabanov, P.V.Dudin, M.A.Jiroxov[19]

---

[15] Heydərova, X.F. Cənubi Qafqaz siyasəti kontekstində ABŞ-Azərbaycan Respublikası münasibətləri: siyasi elmlər üzrə fəlsəfə doktoru dis. / - Bakı: AMEA Hüquq və İnsan Haqları İnstitutu, 2017, - 171 s.

[16] Hüseyn, B.V. ABŞ-ın Cənubi Qafqaz siyasətində neft amili: siyasi elmlər üzrə fəlsəfə doktoru dis. / - Bakı: BDU, 2013, - 161 s.

[17] Bayramova, B.Ə. ABŞ-Azərbaycan münasibətləri (2001-2008-ci illər): tarix üzrə fəlsəfə doktoru dis./ - Bakı, - 2015. - 183 s.

[18] Qurbanova, Ş.M. Keçmiş sovet respublikaları məkanında ABŞ-Rusiya rəqabəti (1991-2010-cu illər): tarix üzrə fəlsəfə doktoru dis. - Bakı: AMEA Tarix İnstitutu, 2014, - 181 s.

[19] Нартов, Н.А. Геополитика / Учебник для вузов. - 2-е изд. - Москва: Юнити-Дана, - 2002. - 439 с.; Дугин, А.Г. Основы геополитики. Книга 1: [Электронный ресурс] / - URL: http://ratnikjournal.narod.ru/zip/Dugin.Geopolitika.pdf; Уткин, А.И. Единственная сверхдержава / А.И.Уткин. - Москва: Алгоритм, - 2003. - 576 с. [Электронный ресурс] / URL: https://knijky.ru/books/edinstvennaya-sverhderzhava?page=6; Анашкина, Е.Б. Современные ориентиры политики США на постсоветском пространстве (на примере Каспийского региона) // Журнал США и Канада: экономика, политика, культура. - 2014, №5, - с. 37-48; Барабанов, О.Н. Политика США в Центральной Азии и Закавказье// Южный фланг СНГ: возможности и вызовы для России. - М.: Логос, - 2003. - с. 336-350; Дудин, П.В. Миротворческая операция в Абхазии (1994-2008 гг.): основные задачи Коллективных сил по поддержанию мира в зоне

Gürcüstandan olan müəlliflərdən N.Akaba, N.Qeqelaşvili, Q.Marxuliya, Z.Papaskiri, B.Adveladze, T.Mabiçuani, K.Kvaşilavanın əsərlərində də ABŞ-ın Qafqaz siyasəti, Gürcüstandakı münaqişələrə yanaşması kimi məsələlər tədqiqata cəlb olunmuşdur.[20] N.Akaba əsərində gürcü-abxaz münaqişəsi, regionda siyasi sabitliyin təmin olunması məsələləri, həmçinin bu sahədə xarici təcrübə məsələlərinə diqqət yetirmişdir. Y.A.Çuqaenko gürcü-osetin münaqişəsini tarixi kontekstdə təhlil etmiş, lakin münaqişəni mərkəz və separatçılar arasında münaqişədən daha çox iki subyekt – "Gürcüstan və Cənubi Osetiya" arasında münaqişə kimi təqdim etmişdir.[21]

ABŞ və Avropa ölkələrindən olan müəlliflərin də bir sıra əsərləri mövzunun öyrənilməsi üçün xüsusi əhəmiyyət kəsb edir. Z.Bjezinski Cənubi Qafqaz regionunda baş vermiş münaqişələrin

---

межнационального конфликта // Армия и общество. - 2009. № 4, - с. 31-35; Жирохов, М.А. Семена распада: войны и конфликты на территории бывшего СССР [Электронный ресурс] / М.А.Жирохов. - Санкт-Петербург: БХВ-Петербург, - 2012. - 688 с. URL: http://library.lol/main/F1961B92D8A5C088DDE24370FE325A07

[20] Akaba, N. The Role of International Inter-governmental Structures in the Resolution of the Georgian-Abkhaz Conflict and Political Stabilisation in the Region (before August 2008) // International Engagement in the Georgian-Abkhaz conflict resolution proces, - 2010, May, - p. 9-18; Гегелашвили, Н.А. Политика Вашингтона в государствах Южного Кавказа и Центральной Азии // США и Канада: экономика, политика, культура. - 2007. №7. - с. 46-78; Мархулия, Г. Армяно-грузинские взаимоотношения в 1918-1920 годах / Г.Мархулия. - Тбилиси, - 2007. 81 с.; Армяне в поисках Армении. / Г.Мархулия. - Тбилиси: Универсал, - 2010, - 232 с.; Папаскири, З. Абхазия история без фальсификации / З.Папаскири.-Тбилиси: Издательство Сухумского Государственного Университета, - 2010. -597 с.; Адвеладзе, Б., Мабицуани, Т. Армянский батальон имени Баграмяна и этночистика Грузии Абхазии / Б.Адвеладзе. - Тбилиси: Универсал, - 2009. - 110 с.; Kvaşilava, K. Abhazya beyliği'nin ruslar tarafindan ilhakı ve "Kafkasya arkeografik komisyon'un akitlarina" göre Osmanlı devleti'nin tutumu // Yeni ve yakın çağda türk-gürcü ilişkileri. - 2019, 2-3 Aralık / Ed. İ.Tellioğlu, R.Kvrelişvili. - Trabzon: Serander yayınları. - 2020. - s. 493-512.

[21] Чугаенко, Ю.А. Грузия – Южная Осетия: исторические первопричины противостояния / Ю.А.Чугаенко. - Киев: Национальная академия управления, -2013. - 240 с.

geosiyasi aspektlərini təhlil etmiş, xüsusən etnik zəmində meydana çıxan münaqişələrin kəskinləşməsi mənbələrini müəyyənləşdirməyə çalışmışdır.[22] S.Blank 2021-ci ildə nəşr etdirdiyi bir məqaləsində Bayden administrasiyasının Cənubi Qafqazda etməli olduğu və edə biləcəyi dəyişikliklərlə bağlı analitik təhlil aparmış, bölgədəki münaqişələrlə bağlı yeni administrasiyanın ata biləcəyi addımları da qeyd etmişdir.[23] L.Koffinin məqalələrində Azərbaycanın Qərb üçün əhəmiyyəti, Gürcüstanın Cənubi Qafqazdakı balanslaşdırıcı rolu ilə bağlı məsələlərə xüsusi diqqət yetirilir.[24]

Dissertasiya işinin yazılması zamanı tədqiqat əsərləri ilə yanaşı Ümummilli lider Heydər Əliyevin "Müstəqilliyimiz əbədidir"[25], Prezidenti İlham Əliyevin "İnkişaf məqsədimizdir"[26] çoxcildliklərində əksini tapmış materiallardan geniş şəkildə istifadə edilmişdir. Bu çoxcildliklərdə təqdim olunan məlumatlar, nitq və çıxışlar ABŞ-ın Qafqaz siyasətini, xüsusən Ermənistan-Azərbaycan münaqişəsinə yanaşmasını, problemin həlli yollarını necə gördüyünü aydınlaşdırmaq nöqteyi nəzərindən çox ciddi əhəmiyyətə malikdir.

Tədqiqatın aparılması zamanı, həmçinin, müxtəlif beynəlxalq təşkilatların və ölkələrin rəsmi dövlət orqanlarının saytlarından və kütləvi informasiya vasitələrinin – BBC, Reuters, (Böyük Britaniya), "Foreign policy" (ABŞ), "Kommersant", "Utro", "Nezavisimaya

---

[22] Brzezhinski, Z. The Grand Chessboard: American Primacy And Its Geostrategic Imperatives. Paperback, / Z.Bzezhinski. - 1998. - 223 p.

[23] Blank, S. What the Biden Administration Can and Should do in the South Caucasus: [Electron resource] / The Central Asian-Caucasus Analyst. -2021, February 8. URL: www.cacianalyst.org/publications/analytical-articles/item/13661-what-the-biden-administration-can-and-should-do-in-the-south-caucasus.html

[24] Coffey, L. Georgia's Balancing Act in the South Caucasus: [Electron resource]/ Middle East Institute, - 2020, October 12. URL: www.mei.edu/publications/georgias-balancing-act-south-caucasus

Coffey, L., Nifti, E. Why the West Needs Azerbaijan: [Elektron resurs]/ Foreign policy. - 2018, May 28. URL: https://foreignpolicy.com/2018/05/28/why-the-west-needs-azerbaijan/

[25] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Ə.Əliyev. - Bakı: Azərnəşr, c. 2. - 1997. - 604 s.

[26] Əliyev, İ.H. İnkişaf məqsədimizdir. [104 cilddə] / Buraxılışa məsul R.Mehdiyev. - Bakı: Azərnəşr, c. 73. - 2018. - 400 s.

qazeta” (Rusiya), “Azərbaycan”, “Ekspress”, “Yeni Azərbaycan”, AzTV, Azərtac materiallarından, ABŞ, Rusiya, Azərbaycan, Gürcüstan və Ermənistanın milli təhlükəsizliklə bağlı konsepsiyalarından və digər rəsmi sənədlərindən istifadə edilmişdir.

**Tədqiqatın obyekti və predmeti**: Tədqiqatın obyekti Qafqaz və Mərkəzi Asiya regionunun subregionlarından biri olan, müasir dünyanın geosiyasi xəritəsində özünəməxsus yer tutan Cənubi Qafqazdakı münaqişələr və ABŞ-ın regional siyasətidir. Tədqiqatın predmetini isə Cənubi Qafqazdakı münaqişələrin meydana çıxması, inkişafı və tənzimlənmə proseslərinə ABŞ-ın regional siyasətinin və bölgədəki maraqlarının təsirləri təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri**: Tədqiqatın əsas məqsədi ABŞ-ın Cənubi Qafqazda münaqişələrin dinc yolla həlli istiqamətində siyasətini təhlil etmək, onun hansı amillərin təsiri altında formalaşdığını və dəyişdiyini müəyyənləşdirməkdir. Qeyd olunan məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr müəyyənləşdirilmiş və yerinə yetirilmişdir:

- Cənubi Qafqazda münaqişələrin yaranma səbəblərini öyrənmək və bu münaqişələri təsnifatlaşdırmaq;
- ABŞ-ın xarici siyasətini təhlil etmək və bu siyasətdə Cənubi Qafqazın yerini müəyyənləşdirmək;
- İkinci Qarabağ müharibəsində Azərbaycanın qələbəsini təhlil etmək və bölgədə potensial təhlükə ocağının aradan qaldırılması yollarını öyrənmək;
- ABŞ-ın İkinci Qarabağ müharibəsinə münasibətini və müharibədən sonrakı tənzimlənmə prosesinə təsir imkanlarını tədqiq etmək;
- Abxaziya münaqişəsinin mövcud vəziyyətini, eləcə də perspektivlərini təhlil etmək;
- Gürcüstanın Tsxinvali regionunda osetin separatizminin səbəblərini, mövcud vəziyyətini və perspektivlərini tədqiq etmək;
- ABŞ-ın gürcü-abxaz və gürcü-osetin münaqişələrinə yanaşmasını analiz etmək;

- Gürcüstanın Samtsxe-Cavaxeti regionunda erməni separatizmini araşdırmaq və onu ABŞ-ın maraqlarına təhdid olaraq nəzərdən keçirmək.

**Tədqiqat metodları**. Tədqiqatın aparılması zamanı həm ümumi, həm də tətbiqi tədqiqat metodlarından istifadə edilmişdir. ABŞ-ın regional siyasətinin və münaqişələrin tənzimlənməsi prosesinə yanaşmasının dəyişməsinə həm Cənubi Qafqaz regionundakı ölkələrdə, həm də ABŞ-ın daxilində baş verən ictimai hadisələrin təsirlərinin müəyyənləşdirilməsi üçün sosioloji metoddan istifadə edilmişdir. Bu metodun tətbiqi ABŞ-ın Cənubi Qafqaz siyasətini region ölkələrindəki daxili inkişaf prosesləri kontekstində aydın şəkildə dərk etməyə və təhlil etməyə imkan verir. Dissertasiya işində ən geniş tətbiq olunmuş ümumi tədqiqat metodlarından biri komparativist metoddur. Məhz bu metodun tətbiqi vasitəsi ilə Cənubi Qafqazdakı real və potensial münaqişələr arasında, ABŞ-la bölgədə marağı olan digər dövlətlərin regional siyasətləri arasında müqayisələr aparılmış, oxşar və fərqli cəhətlər müəyyən edilmişdir.

Tətbiqi metodlara gəlincə tədqiqatların aparılması zamanı sənədlərin öyrənilməsi, kontent və ivent-analiz, modelləşdirmə tətbiq edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar**: Dissertasiya işində müdafiəyə çıxarılan əsas müddəalar aşağıdakılardan ibarətdir:

- Cənubi Qafqaz regionunda hər hansı münaqişə ABŞ-ın enerji maraqlarını təhdid edə bilər;
- Cənubi Qafqazın ABŞ üçün əhəmiyyəti həm onun iqtisadi-enerji potensialı ilə, həm də bölgənin hərbi-strateji mövqeyi ilə müəyyənləşir;
- ABŞ-ın Cənubi Qafqazdakı separatçı qüvvələrə nəzarət imkanlarının olmaması və separatçıların asanlıqla Rusiyanın təsir dairəsinə düşməsi səbəbindən Cənubi Qafqazda indiki formada hər hansı separatçı münaqişə ABŞ-ın marağında deyil;
- 1994-2020-ci illər ərzindəki danışıqlar prosesində Ermənistan-Azərbaycan münaqişəsinin həlli istiqamətində ABŞ pasifist mövqe sərgiləmiş və münaqişənin həlli üçün qətiyyətli addımlar atmamışdır;

- 44 günlük müharibədən sonra ABŞ Ermənistan və Azərbaycan arasındakı sülh danışıqlarında daha çox təsir imkanlarına malik olmaq və bu mövqeyi geosiyasi rəqiblərinə verməmək üçün fəallıq göstərir;
- Abxaziyadakı ermənilərin muxtariyyət tələbləri gələcəkdə "münaqişə daxilində münaqişə" vəziyyətinə gətirib çıxara bilər.

**Tədqiqatın elmi yeniliyi**: Tədqiqat nəticəsində əldə olunan elmi yeniliklər aşağıdakılardır və bu elmi yeniliklərlə bağlı əsas müddəalar müxtəlif dövrlərdə dərc edilmiş elmi əsərlərdə əksini tapmışdır:

- Cənubi Qafqaz regionundakı münaqişələrin 4 parametr üzrə (baş vermə səbəbləri, tənzimlənmə mexanizmləri, coğrafi areal, mövcud inkişaf mərhələsi) təsnifatı aparılmışdır.
- Müəyyən olunmuşdur ki, Gürcüstanın özünümüdafiəsi üçün kritik əhəmiyyətə malik 2004-2008-ci illər arasında ABŞ Rusiyanın real təhdidi ilə üzləşdiyi məqamlarda Gürcüstana qətiyyətli dəstək verməmişdir.
- Abxaziya münaqişəsi və Tsxinvali regionundakı gürcü-osetin münaqişəsi ilə paralel Cavaxetidəki erməni separatizminin də yaxın gələcəkdə ABŞ-ın regional maraqlarına təhdid ola biləcəyi müəyyənləşdirilmişdir.
- 44 günlük müharibədən sonra ABŞ-ın Azərbaycana və Ermənistana təsir imkanlarının məhdudlaşması səbəbindən ABŞ-dakı erməni lobbisi ölkə administrasiyasına fərqli sahələrdə (məsələn, qondarma "erməni soyqırımı"nın tanınması kimi) təzyiq göstərməyə başlamışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti**: Dissertasiya işinin aktuallığı onun nəzəri və praktiki əhəmiyyətini müəyyənləşdirir. Tədqiqat zamanı əldə edilmiş nəticələr, irəli sürülən müddəa və proqnozlardan Azərbaycan Xarici İşlər Nazirliyinin xarici siyasət fəaliyyətlərinin həyata keçirilməsində istifadə edilə bilər.

Tədqiqatın digər bir əhəmiyyəti ondan ibarətdir ki, bu tədqiqatdan gələcəkdə bu istiqamətdə tədqiqat işlərinin aparılması, eləcə də elmi seminar və konfransların təşkili zamanı istifadə edilə bilər, həmçinin bu tədqiqat Qafqazşünaslıq və beynəlxalq

münasibətlər sahəsində dərslik və dərs vəsaitlərinin hazırlanması üçün mənbə rolunu oynaya bilər.

**Aprobasiyası və tətbiqi**: Tədqiqatın əsas nəticələri ilə bağlı müəllifin Azərbaycanda və xarici ölkələrdə beynəlxalq və respublika əhəmiyyətli konfrans və forumlarda məruzələri olmuş, AAK-ın tövsiyə etdiyi yerli və beynəlxalq bazalara daxil olan xarici jurnallarda Azərbaycan, ingilis dillərində məqalələri nəşr olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** AMEA Hüquq və İnsan Haqları İnstitutu.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi:** Dissertasiya giriş, 3 fəsil, 8 paraqraf, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın giriş hissəsi 21389 işarə, iki paraqrafdan ibarət olan birinci fəsil 56956 işarə, üç paraqrafdan ibarət olan ikinci fəsil 95740 işarə, üç paraqrafdan ibarət olan üçüncü fəsil 61296 işarə, nəticə 6379 işarə, ümumi həcmi 241760 işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

"Giriş"də mövzunun aktuallığı əsaslandırılmış, siyasi elmdə işlənmə dərəcəsi təhlil edilmişdir. Burada tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri, dissertasiyanın yazılması zamanı istifadə olunmuş metodlardan bəhs olunmuş, müdafiəyə çıxarılan əsas müddəalar və yeniliklər barədə məlumat verilmiş, tədqiqatın nəzəri və praktiki əhəmiyyəti əsaslandırılmışdır. Giriş hissəsində həmçinin, işin aprobasiyası və tətbiqi, yerinə yetirildiyi təşkilatın adı, dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi göstərilmişdir.

Dissertasiya işinin **"Cənubi Qafqaz regionunda münaqişələrin xüsusiyyətləri və ABŞ-ın geosiyasi təsirləri"** adlanan birinci fəsli iki paraqrafdan ibarətdir. "**Cənubi Qafqazda münaqişələrin yaranma səbəbləri və təsnifatı**" adlanan birinci paraqrafda regionda münaqişələrin yaranma səbəblərinə diqqət yetirilmiş və münaqişələrin təsnifatı aparılmışdır. Tədqiqat

predmetləri olaraq müəyyənləşdirilmiş Ermənistanın Azərbaycana təcavüzünün, Gürcüstanın Abxaziya, Tsxinvali, Samtsxe-Cavaxeti ərazilərində mövcud olan münaqişələrin yaranmasının və inkişaf etməsinin səbəblərini aşağıdakı kimi təsnifləşdirmək mümkündür: coğrafi; tarixi; etno-demoqrafik; teoloji və kulturoloji; iqtisadi; ideoloji; geosiyasi səbəblər və s.

Xəzər və Qara dəniz arasında yerləşməsi, zəngin təbii sərvətlərə, əsasən münbit torpaqlara sahib olması, su və karbohidrogen ehtiyatlarının mövcudluğu Cənubi Qafqazın hər bir qarışı uğrunda mübarizəyə təkan verən amillərdən biri olmuşdur.

Cənubi Qafqaz ərazisində münaqişələrin yaranmasına, onların həlli proseslərinin mürəkkəbliyinə tarixi amillər də əhəmiyyətli təsir göstərir. Xüsusən, tarixin müəyyən mərhələsində baş vermiş və ya uydurulmuş hadisələrlə bağlı "tarixi yaddaş" regionda millətlərarası münaqişələrin aradan qaldırılması prosesini ləngidir.

Cənubi Qafqaz milli-etnik tərkibinin zənginliyi baxımından nəinki Avrasiya materikinin, ümumilikdə bütün dünyanın ən seçilən bölgələrindən biridir. Bu regionda mövcud olan münaqişələrin əksəriyyəti milli-etnik toqquşmalardan qaynaqlanır. Abxaziya münaqişəsinin əsasında gürcü-abxaz, Tsxinvali regionundakı münaqişənin əsasında isə gürcü-osetin düşmənçiliyi dayanır. Potensial münaqişə bölgəsi kimi qiymətləndirilən Samtsxe-Cavaxeti regionunda baş verənlərin kökündə də etno-demoqrafik amillər dayanır.

Bu bölgədə münaqişələrin yaranmasında teoloji və kulturoloji amillər də müəyyən rol oynamışdır. Xüsusən, Ermənistan-Azərbaycan münaqişəsi və rus-çeçen münaqişəsi zamanı münaqişə tərəflərinin müxtəlif dinlərin mənsubları olması bu amillərin təsir gücünü artırırdı.

Bölgədəki münaqişə potensialının artması qədim zamanlardan bu ərazinin Asiyadan Avropaya və Yaxın Şərqə hərəkət edən xalqlar üçün bir növ körpü rolunu oynaması ilə əlaqədar olmuşdur.

Münaqişələrin meydana çıxmasında ideoloji amillər də mühüm rol oynayır. Məsələn, XX əsrin 90-cı illərində Gürcüstanda abxaz və osetin separatizminin meydana çıxmasında və daha da alovlanmasında, o zamankı Gürcüstan prezidenti Z.Qamsaxurdiyanın

milliyyətçi-ideoloji çağırışları, ölkədə milliyyətçiliyin yüksəlməsi xüsusi rol oynamışdı. Yaxud Ermənistanın Azərbaycan əhalisinə qarşı qanlı terror aktları, soyqırımı törətməsinin və münaqişənin daha da kəskin formada təzahür etməsinin səbəbləri içərisində "böyük Ermənistan", "Miatsum", türklərin erməniləri guya "soyqırımı"na uğratması ilə bağlı uydurulmuş, heç bir əsası olmayan, lakin ermənilərin beyninə yeridilmiş ideoloji çağırışları qeyd etmək lazımdır.

Tarixən bu və ya digər şəkildə mövcud olmuş münaqişələrin XX əsrin 90-cı illərinin əvvəllərindən etibarən yenidən aktiv hərbi əməliyyatlarla müşahidə edilən münaqişələrə çevrilmələri geosiyasi amillərlə birbaşa olaraq bağlı olmuşdur. 1991-ci ilin dekabrında SSRİ-nin bir dövlət kimi tarix səhnəsindən silinməsi ciddi geosiyasi dəyişikliklərə səbəb olmuşdur.

Bu fəslin ikinci paraqrafı "**ABŞ-ın xarici siyasətində Cənubi Qafqazın yeri**" adlanır. Burada qeyd olunur ki, müasir mərhələdə bölgədə maraqları uğrunda fəal şəkildə mübarizə aparan əsas dövlətlər sırasında olan ABŞ-ın regiona marağı başlıca olaraq qlobal geosiyasi güc iddialarından, iqtisadi maraqlarından irəli gəlir. Regional sabitliyin qorunması, dondurulmuş münaqişələrin bərpasının qarşısının alınması və demokratik dəyişiklikləri, eləcə də Ermənistan, Azərbaycan və Gürcüstanın beynəlxalq inteqrasiyasını dəstəkləmək kimi istiqamətlər ABŞ-ın Cənubi Qafqaz üzrə siyasətinin əsasını təşkil edir. ABŞ üçün Cənubi Qafqazın böyük əhəmiyyəti onun həm də hərbi-strateji mövqeyi ilə müəyyənləşir. SSRİ-nin süqutundan sonra ABŞ Rusiya və İranı bölgədən sıxışdırmaq kursu yürütməyə başlamışdı.

Müasir mərhələdə C.Bayden administrasiyası Aİ ilə birlikdə Cənubi Qafqazın hər üç dövlətini əvvəlkindən daha çox dərəcədə cəlb etmək üçün addımlar atmağa və real motivlər yaratmağa çalışır. ABŞ-da hesab edirlər ki, xüsusən Gürcüstan və Ermənistanda demokratikləşmə islahatları və iqtisadi inkişaf üçün ABŞ-ın güclü dəstəyi Rusiyanın təsir gücünün azaldılmasına xidmət edə bilər. Amerikalı tədqiqatçı S.Blank yazır ki, ABŞ-ın Ermənistanda "demokratikləşmə" və "iqtisadi inkişaf"a davamlı dəstəyi təkcə

Rusiyanın deyil, həm də İranın nüfuzunu azaltmağa kömək edə bilər.[27]

ABŞ-ın Cənubi Qafqaz siyasətinin formalaşmasına təsir göstərən amillərə gəlincə ilk amil Rusiyanın bu regiondakı xarici siyasətidir. Bu siyasət kursu NATO-nun genişlənməsini ehtiva edən fəaliyyətlərin qarşısını alır. İkinci əhəmiyyətli amil İranın regional geosiyasi oyunçu kimi regiona təsir imkanlarıdır. Tədqiqatlar göstərir ki, digər istiqamətlərdə ABŞ İranın əlaqələrini məhdudlaşdırmağa xeyli dərəcədə nail olsa da, Cənubi Qafqaz istiqamətində buna müyəssər olmamışdır. Hətta ABŞ-ın Cənubi Qafqazda sıx əlaqə qurduğu iki dövlət - Azərbaycan və Gürcüstan belə sanksiyaların tətbiq olunduğu dövrlərdə İranla əməkdaşlığı davam etdirmişlər. Üçüncüsü, Cənubi Qafqaz bölgəsində münaqişələrin və ABŞ nəzarətindən kənar separatçı bölgələrin mövcudiyyəti (Abxaziya, Tsxinvali regionu) ABŞ-ın geosiyasi rəqibləri üçün manevr imkanları yaradır. Bütün bunlarla yanaşı beynəlxalq terrorizmə qarşı mübarizədə mühüm strateji mövqeyə malik olması da ABŞ-ın xarici siyasətində Cənubi Qafqaz istiqamətinin prioritetliliyini müəyyənləşdirir.

Dissertasiya işinin **“Cənubi Qafqazda dondurulmuş münaqişələr və ABŞ-ın mövqeyi”** adlanan ikinci fəslinin birinci paraqrafı “**Abxaziya münaqişəsi: səbəbləri, mövcud vəziyyət və tənzimlənmə cəhdləri**” adlanır. Bu paraqrafda Abxaziya münaqişəsinin meydana çıxma səbəbləri, mövcud vəziyyəti təhlil edilmiş, gələcəyi ilə bağlı proqnozlar irəli sürülmüşdür.

XX əsrin 80-ci illərinin sonlarında baş verən proseslər Gürcüstanda 1991-ci ilin aprelin 9-da dövlət müstəqilliyinin bərpası haqqında aktın qəbul edilməsi ilə nəticələndi.[28] Az sonra keçirilən

---

[27] Blank, S. What the Biden Administration Can and Should do in the South Caucasus: [Electron resource] / The Central Asian-Caucasus Analyst. -2021, February 8. URL: www.cacianalyst.org/publications/analytical-articles/item/13661-what-the-biden-administration-can-and-should-do-in-the-south-caucasus.html

[28] Акт о восстановлении государственной независимости Грузии / Подписано членами Верховного Совета и Правительства Республики Грузия Тбилиси, 9 апреля 1991 г.: [Электронный ресурс] / Тбилиси, 1991. URL: www.gorby.ru/userfiles/gruzia(1).pdf

prezident seçkiləri nəticəsində daha çox radikal milliyyətçi çağırışları ilə seçilən Z.Qamsaxurdiya hakimiyyətə gəldi. Bundan sonra ölkədə gürcülərlə digər millətlər, xüsusilə də Gürcüstanda yaşayan ermənilər və digər etnik azlıqlar (osetinlər, abxazlar) arasında problemlərin daha da kəskinləşməsi baş verdi. Proseslər, xüsusən, abxazlar və osetinlər arasında separatizm meyillərinin güclənməsinə gətirib çıxartdı.

Z.Qamsaxurdiyanın devrilməsinə baxmayaraq proseslərin qarşısını almaq mümkün olmadı. 1992-ci ilin avqustunda Abxaziya münaqişəsi hərbi fazaya qədəm qoydu. Sonrakı illərdə beynəlxalq təşkilatların, Rusiyanın və digər dövlətlərin də prosesə daxil olması ilə münaqişə Gürcüstanın daxili məsələsi olmaqdan çıxdı. 2006-cı ildə Rusiya rəhbərliyi Kosovo ətrafındakı vəziyyəti Abxaziyanın beynəlxalq səviyyədə tanınması üçün presedent kimi göstərməyə başladı. Gürcüstan parlamenti 2006-cı ilin iyul ayının ortalarında Rusiya sülhməramlı qüvvələrinin Abxaziya və Cənubi Osetiyadan çəkilməsini tələb edən qərar qəbul etdi. Buna cavab olaraq separatçı Abxaziya "parlamenti" Rusiya da daxil olmaqla bütün ölkələri "Abxaziya Respublikasının müstəqilliyinin rəsmi tanınması prosesinə dərhal başlamağa" çağırmış və həmçinin, BMT, ATƏT və digər beynəlxalq təşkilatlara Gürcüstan rəhbərliyinin hərbi planlarını dayandırmağa çağırış edilməsi ilə bağlı müraciət etmişdi.

2008-ci ildə Gürcüstan tərəfinin osetin separatçılarına qarşı Tsxinvali regionunda genişmiqyaslı əməliyyatının başlanması Abxaziya tərəfinin, böyük ehtimalla, növbəti zərbənin hədəfinə çevriləcəyinə inamını gücləndirdi. Avqustun 20-də separatçı Abxaziyanın "parlamenti" Rusiyaya müstəqilliyinin tanınması tələbi ilə müraciət etdi.[29] Avqustun 25-də Rusiya Federasiya Şurası Prezident D.Medvedevə Tsxinvalidə yaradılmış qondarma "Cənubi Osetiya"nın və separatçı Abxaziyanın "müstəqilliyi"ni tanıması üçün müraciət qəbul etdi.[30] Elə həmin gün Dövlət Duması Rusiya

---

[29] Стенограмма заседаний Государственная Дума. 2008 год. Осенняя сессия. 25 августа — 19 сентября / Ответ. за выпуск М.О.Теплова. – Москва: Издание Государственной Думы. –с. 25.

[30] Обращение Совета Федерации Федерального собрания РФ к Президенту Российской Федерации Д.А.Медведеву о признании независимости Южной

Prezidentinə oxşar bir müraciət qəbul etdi. Avqustun 26-da Rusiya Federasiyasının Prezidenti "Cənubi Osetiya"ya (Gürcüstanın Tsxinvalidəki osetin separatçıları üzərinə) hücumun Rusiyaya Abxaziya və Cənubi Osetiyanı müstəqil dövlətlər kimi tanımaqdan başqa bir yol qoymadığını bildirdi.

Gürcüstan parlamenti avqustun 28-də yekdilliklə Abxaziya və Cənubi Osetiyanın Rusiya tərəfindən işğal edilmiş ərazilər, Rusiya sülhməramlılarının isə işğalçı qüvvələr olaraq adlandırıldığı qərar qəbul etdi.

Gürcülərlə abxazlar arasında münasibətlər hələ də münaqişə xarakteri daşıyır. Hazırda Abxaziyada separatçı rejim fəaliyyət göstərir. Gürcüstan hökuməti bu rejimi tanımır. ABŞ Gürcüstanın ərazi bütövlüyünü dəstəkləyir. Gürcüstanın Abxaziya ilə bağlı "işğal olunmuş ərazilər haqqında" 23 noyabr 2008-ci il tarixli Qanunu qüvvədədir.[31]

Abxaziya münaqişəsi mövcudiyyətini davam etdirməklə yanaşı, separatçı qurumun özündə də yeni potensial münaqişə ocaqları formalaşmaqdadır. Bu əsasən Abxaziyada ermənilərin fəaliyyətləri ilə bağlıdır.[32] Abxaziya münaqişəsi həll olunmamış qalır və "dondurulmuş münaqişə" zonası hesab edilir.

İkinci fəslin ikinci paraqrafı "**Gürcüstanın Tsxinvali regionunda osetin separatizminin səbəbləri, mövcud vəziyyəti**" adlanır. Qafqazdakı digər dondurulmuş münaqişə bölgəsi Gürcüstanın Şida-Kartli diyarının Tsxinvali regionundadır. Tədqiqatlardan aydın olur ki, bu münaqişənin də yenidən açıq fazaya keçməsi SSRİ-nin süqutu ərəfəsində baş verən proseslərlə bağlı olmuşdur. Münaqişənin tənzimlənməsi üçün uzun illər ərzində müxtəlif səylər göstərilmişdir. Gürcüstanda M.Saakaşvilinin hakimiyyətə gəlişindən sonra gürcü-osetin münaqişəsi yenidən hərbi qarşıdurmaya çevrilmişdi. Mərkəzi Gürcüstan hakimiyyətinin

---

Осетии и Абхазии. 25 августа 2008 года. : [Электронный ресурс] / -Москва, - 2008, URL: https://www.garant.ru/news/14424/

[31] Закон об оккупированных территориях: [Электронный ресурс] / Matsne.gov.ge, URL:https://matsne.gov.ge/ru/document/view/19132?publication=8

[32] Kəlbizadə, E.H. Ermənilərin Abxaziyada məkrli niyyətləri və hədəfi: "Qaradənizsahili Ermənistan" // Xalq qəzeti. - 2020, 16 oktyabr. - s.11.

Tsxinvali regionuna (Cənubi Osetiya) qoşun yeritməsi ilə başlayan qarşıdurma nəticəsində mülki əhali və hər iki tərəfin hərbiçiləri arasında ölənlər oldu. M.Saakaşvilinin hakimiyyəti illərində Rusiyanın geosiyasi oxundan xeyli dərəcədə uzaqlaşmış, Cənubi Qafqaz regionunda ABŞ maraqlarının birmənalı müdafiəçisi kimi çıxış edən Gürcüstana qarşı Rusiya 2008-ci ilin yayından etibarən cəzalandırma tədbirlərinə başladı. Bu daha çox Gürcüstanın Rusiya təsirində olan qiyamçı və separatçı əraziləri olan Cənubi Osetiya (Tsxinvali) və Abxaziya hesabına edildi.

2008-ci ilin avqustunda Tsxinvali ətrafında gərginləşən vəziyyət Rusiya ilə Gürcüstan arasında 5 günlük müharibə ilə nəticələndi. Avqustun 12-də Rusiya Prezidenti D.Medvedev "müəyyənləşdirilmiş məqsədlərə çatdıqlarını" elan edərək rus ordusuna hərbi əməliyyatları dayandırmaq əmrini verdi.[33] Həmin gün Rusiya və Fransa prezidentləri müharibənin qurtarmasına və münaqişənin nizamlanmasına dair 6 maddəlik "Medvedev-Sarkozi" planını açıqladılar. Bu hadisələrin baş verməsində M.Saakaşvilinin də strateji səhvləri olmuşdur. Onun hesablanmamış, tələskən addımları və Rusiya rəhbərliyinə qarşı təhrikedici siyasəti həm öz ölkəsinin, həm də onun Qərb dəstəkçilərinin Rusiya qarşısında hazırlıqsız yaxalanmasına səbəb oldu. Gürcüstan Rusiya qarşısında tək qaldı. Rusiya ordusu qarşısında davam gətirməyəcəyini bilə-bilə Saakaşvili gərginliyi azaldacaq və tərəfləri müharibədən yayındıracaq bəyanatlar vermək əvəzinə daha da aqressiv və təhrikedici ifadələr istifadə etdi. Bu isə Gürcüstanın ağır itkilər verməsi ilə nəticələndi. 2022-ci ildə Rusiya-Ukrayna müharibəsi zamanı Kiyevə göstərilən beynəlxalq dəstək, hərbi və humanitar yardımlar, eləcə də Rusiyaya qarşı sərt sanksiya siyasəti 2008-ci ildə Gürcüstana göstərilməmişdir. Bu isə Rusiya-Gürcüstan müharibəsinin taleyində həlledici oldu.

Bu fəslin "**ABŞ-ın gürcü-abxaz və gürcü-osetin münaqişələrinə yanaşması**" adlanan üçüncü paraqrafında vurğulanır ki, ABŞ-ın gürcü-abxaz və Tsxinvali regionundakı gürcü-osetin

---

[33] Чугаенко, Ю.А. Грузия – Южная Осетия: исторические первопричины противостояния / Ю.А.Чугаенко. - Киев: Национальная академия управления, -2013. – s. 178.

münaqişələrinə yanaşmasına müxtəlif amillər təsir göstərmişdir. Geosiyasi rəqibi olan SSRİ-nin ayrı-ayrı respublikalarındakı potensial münaqişə ocaqlarında qaynar nöqtələrin yaranmasını ABŞ başlanğıcda fürsət olaraq qiymətləndirirdi. Bu cür münaqişələr SSRİ-ni zəfilətməyə çalışan ABŞ-ın məqsədinə çatmasını təmin edə bilərdi. Bu baxımdan hər iki münaqişənin ortaya çıxdığı ilk dövrlərdə ABŞ-ın hər hansı xüsusi çağırışlarına rast gəlinmir. Gürcü-abxaz münaqişəsinin başlanmasından sonra münaqişənin tənzimlənməsi prosesində isə tədricən ABŞ da müəyyən rol almaq üçün addımlar atmışdı.

Gürcü-abxaz münaqişəsinin dinc vasitələrlə tənzimlənməsi məqsədi ilə 1993-cü ildə BMT Baş Katibinin dostları qrupu yaradılmışdı. Bu qrup 5 ölkədən ibarət idi: Rusiya, ABŞ, Böyük Britaniya, Fransa və Almaniya. ABŞ-ın BMT-dən bir mexanizm kimi istifadə edərək bu qrupu formalaşdırmaqda və onun tərkibinə daxil olmaqda başlıca məqsədi münaqişə tərəfləri arasında Cenevrədə Rusiyanın vasitəçiliyi aparılan danışıqlara nəzarət imkanları əldə etmək olmuşdur.[34] Həmin dövrdə Gürcüstana vaxtilə SSRİ-nin xarici işlər naziri olmuş E.Şevardnadze rəhbərlik edirdi. O, ABŞ və Rusiya arasında manevr etməklə ölkənin qarşılaşdığı problemləri aradan qaldırmağa, eyni zamanda da öz hakimiyyətini möhkəmlətməyə çalışırdı.

ABŞ və NATO Gürcüstanda M.Saakaşvili liderliyində "Qızılgül inqilabı"nın baş verməsindən sonra regionda daha aktiv rol almağa çalışırdı. Gürcüstan ordusunun NATO modelinə transformasiyası, onun şəxsi heyətinə ABŞ-dan olan mütəxəssislər tərəfindən təlimlərin keçirilməsi Gürcüstanın yeni müdafiə məkanı formalaşdırmaq niyyətlərindən irəli gəlirdi. Rusiya üçün isə bu meyillənmənin qarşısını almaqdan ötrü başlıca vasitələrdən biri Gürcüstanın Abxaziya və Tsxinvali regionlarındakı münaqişə ocaqları idi.

---

[34] Живущие Неопределенностью. Положение этнических грузин, возвращающихся в Гальский район Абхазии [Электронный ресурс] / HRV.org, - 2011. URL: https://www.hrw.org/ru/report/2011/07/15/256227

2008-ci ildən sonrakı dövrdə ABŞ-ın Cənubi Qafqaz siyasətində nisbətən geri çəkilmə müşahidə edilsə də, bu dövrə qədər yuxarıdakı planın həyata keçirilməsi üçün müəyyən addımlar atılmışdır.

Müasir dövrdə isə Rusiya-Ukrayna münaqişəsi kontekstində Gürcüstandakı münaqişələr müəyyən qədər arxa plana keçib. ABŞ bu məsələlərdə hələki gözləmə mövqeyindədir.

ABŞ-ın gürcü-abxaz və gürcü-osetin münaqişələrinə münasibəti əvvəlcə SSRİ, sonrakı dövrdə isə Rusiya ilə geosiyasi rəqabəti fonunda formalaşmışdır. ABŞ bu separatçı qurumları tanımır, Gürcüstanın ərazi bütövlüyünü tanıdığını bəyan edir. ABŞ-ın bu münaqişələrin həllində Gürcüstana ən real yardımının mümkün olduğu dövr 2004-2008-ci illər olmuşdur. Bu müddətdə ABŞ Gürcüstan silahlı qüvvələrinin gücləndirilməsi üçün müxtəlif addımlar atsa da, Gürcüstanın Rusiyanın real təhdidi ilə üzləşdiyi məqamlarda ona qətiyyətli dəstək verməmişdir. Həmin dövrdən etibarən Rusiyanın Cənubi Qafqaza təsirləri yenidən güclənməyə başlamışdı. ABŞ-ın bölgədəki mövqelərinin zəifləməsinə həm də ən yaxın müttəfiqlərindən biri olan Türkiyə ilə münasibətlərindəki gərginliklər təsir göstərmişdi.

2008-ci ildən bəri ABŞ-ın Abxaziya və Tsxinvalidəki münaqişələrin tənzimlənməsində həlledici rol oynaması mümkün olmamışdır. Gürcüstan geosiyasi reallıqlarla hesablaşaraq bu münaqişələrin həlli üçün əlverişli şəraiti gözləməkdədir.

2022-ci ilin fevralında başlayan Rusiya ilə Ukrayna arasında müharibə Gürcüstanda da müəyyən ümidlər yaradır. Hesab edilir ki, Gürcüstan ərazisindəki münaqişələrin həllinin yaxın gələcəkdə mümkünlüyü Rusiyanın Ukrayna ilə müharibədə nə qədər zəifləməsindən asılıdır.

**“Cənubi Qafqazda potensial münaqişə ocaqları, aradan qaldırılması yolları və ABŞ-ın maraqları”** adlanan üçüncü fəslin birinci paraqrafı “**İkinci Qarabağ müharibəsində Azərbaycanın qələbəsi və bölgədə potensial təhlükə ocağının aradan qaldırılması yolları**” adlanır. Bu paraqrafda Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi nəticəsində yaranmış və 30 ilə yaxın müddətdə mövcud olmuş münaqişənin hərbi-siyasi həlli və

bölgədə potensial təhlükə ocağının aradan qaldırılması yolları tədqiq edilmişdir.

Təhlillər göstərir ki, Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli üçün ABŞ, Fransa, Rusiya, İran, Qazaxıstan kimi dövlətlərin vasitəçilik etmək səyləri, BMT tərəfindən erməni silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan ərazilərindən çıxarılması ilə bağlı qəbul edilən qətnamələr[35], münaqişənin sülh yolu ilə həlli üçün yaradılmış ATƏT-in Minsk qrupunun fəaliyyəti nəticəsiz olmuşdur. Bu həm də ABŞ-ın regiondakı geosiyasi və geoiqtisadi maraqları ilə bağlı olmuşdur.

2020-ci ilin sentyabr ayında Ermənistan tərəfindən yenidən cəbhəboyu zonada təxribatlar, mülki yaşayış məntəqələrinə hücumlar törədildi. Münaqişənin həlli üçün diplomatik yollar tükənmiş, Ermənistan tərəfinin pozucu mövqeyi sülh danışıqlarını mənasız etmişdi. Ermənistanın təxribatlarının qarşısını almaq, işğal prosesinə son qoymaq üçün Azərbaycan məcburi olaraq hərbi-siyasi həll variantını seçdi. Müharibə 44 gün davam etdi. Noyabrın 10-da müharibənin dayandırılması və Azərbaycanın böyük qələbəsini rəsmiləşdirən üçtərəfli bəyanat imzalandı. Bəyanatda münaqişə bölgəsində hərbi əməliyyatlara son qoyulması, müəyyən olunan tarixlərə qədər Ağdam, Kəlbəcər və Laçın rayonlarının azad edilməsi, erməni əhalisinin yaşadığı bölgəyə və Laçın dəhlizinə 5 illik müddətə Rusiyanın sülhməramlı kontingentinin yerləşdirilməsi, atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəzin yaradılması, daxili məcburi köçkünlər və qaçqınların öz yaşayış yerlərinə BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının ofisinin nəzarəti altında geri qaytarılması, hərbi əsirlər, girovlar və digər saxlanılan şəxslərin, habelə cəsədlərin mübadiləsinin həyata keçirilməsi, bölgədəki bütün iqtisadi və

---

[35] Resolution 822 (1993) Adopted by the Security Council at its 3205 th Meeting on 30 Aprel 1993 // Aggression of the Republic of Armenia Against the Azerbaijani Republic. Information Bulletin, – Baku: The Ministry of Foreign Affairs of the Azerbaijan Republic – 1994. – pp. 13-14.

nəqliyyat əlaqələrinin bərpa edilməsi və s. mühüm məsələlər nəzərdə tutulurdu.[36]

44 günlük Vətən müharibəsi ABŞ siyasi dairələrinin, mediasının da diqqət mərkəzində olmuşdu. ABŞ regionda geosiyasi vəziyyətin dəyişməsini, faktiki olaraq regiona nəzarət imkanlarını itirə biləcəyini nəzərə alaraq müəyyən addımlar atmışdı. Lakin bu cür cəhdlər proseslərin gedişatına əsaslı təsir göstərməmişdir. ABŞ-ın tam fəallıq nümayiş etdirə bilməməsinin əsas səbəbi öz daxilində baş verən siyasi proseslərlə bağlı olmuşdur. Hadisələrə ABŞ-dakı müxtəlif siyasi qüvvələrin reaksiyaları ölkədə keçirilən prezident seçkiləri ilə birbaşa bağlı idi.

Müharibənin dayandırılması prosesində təşəbbüsü məhz Rusiyanın ələ alması, regiona sülhməramlı qüvvələr formatında da olsa hərbi qüvvə göndərməsi təbii ki, ABŞ üçün arzuolunmaz olmuşdur. ABŞ diplomatiyası münaqişənin tənzimlənməsi sahəsində itirdiyi rolunu geri qaytarmaq üçün Fransa ilə birlikdə cəhdlər göstərmişdir.

Üçüncü fəslin ikinci paraqrafı "**ABŞ-ın İkinci Qarabağ müharibəsinə münasibəti və müharibədən sonrakı tənzimlənmə prosesinə təsir imkanları**" adlanır. Vətən müharibəsi dövründə ABŞ-da prezidentlik postu uğrunda gedən sərt mübarizə onun diqqətini Cənubi Qafqazdan yayındırırdı. Region ölkələrinin Qərb geosiyasi məkanına inteqrasiyasına maraqlı olan ABŞ mühüm bir nöqtədə oyundankənar vəziyyətə salınması ilə barışmır. Qərblə Şərqin hüdudlarında yerləşən Azərbaycanın Avropa inteqrasiya proseslərinə qoşulmasının perspektivləri vacib və parlaq hesab edilir.[37]

10 noyabr bəyanatının imzalanmasından sonra regiondakı geosiyasi proseslərin Ermənistanın əleyhinə cərəyan etməsi ABŞ-da erməni lobbisini fəallaşdırmışdı. Xüsusən erməni lobbisinin üzərində ciddi təsirə malik olduğu Demokratlar Partiyasının nümayəndəsi

---

[36] İlham Əliyev xalqa müraciət edib: [Elektron resurs] / Azərbaycan Respublikasının Prezidentinin rəsmi internet səhifəsi. – Bakı, – 10 noyabr, 2020. URL: https://president.az/articles/45924/print

[37] Hüseynova, H.K. Müasir inteqrasiya prosesləri. Dərslik. / H.K.Hüseynova. - Bakı, - 2010. - s.255.

C.Baydenin prezident seçilməsi Ermənistanda böyük ümidlər doğururdu. Baydenin prezidentliyə gəlməsi ərəfəsində ABŞ-dakı siyasi qarışıqlıqlardan istifadə edərək bölgədə əsas mediator – tənzimləyici rolunu öz üzərinə götürən Rusiyanın təsirinin güclənməsi də rəsmi Vaşinqtonu narahat edirdi. Bu baxımdan ABŞ diplomatiyası müharibədən sonra regional siyasətdə ofsayd vəziyyətinə düşmüş digər geosiyasi oyunçu Fransa ilə birlikdə itirdiyi rolunu qaytarmağa çalışmışdır. Bəyanatın imzalanmasından sonra Minsk qrupunun Fransa və ABŞ-dan olan həmsədrlərinin dekabr ayının 12-də Cənubi Qafqaza təcili səfərləri də məhz bunun göstəricisi olmuşdur. ABŞ diplomatiyası tərəfindən faktiki olaraq hərbi-siyasi yolla həll edilmiş münaqişəni yenidən diriltmək, guya hansısa problemlərin (Qarabağda ermənilər yaşayan ərazilərin statusu və s.) olduğunu iddia etmək cəhdləri Azərbaycan tərəfindən sərt reaksiya ilə qarşılanmışdı.[38] ABŞ Dövlət Departamenti belə hesab edirdi ki, hərbi mərhələnin başa çatmasına baxmayaraq bölgədə hələ də böyük bir təhlükəsizlik problemi qalmaqdadır.

Bu paraqrafda hazırki geosiyasi situasiyada ABŞ-ın regional proseslərə ciddi təsir göstərmək imkanlarının olmadığı qeyd edilir. Tədqiqatlar Vətən müharibəsindən sonra yaranmış strateji vəziyyətdə ABŞ-ın regionda maraqlarını təmin etmək və güclənmək üçün Azərbaycanın uzunmüddətli sülhün təmin olunmasına əsaslanan mövqeyini dəstəkləməsinin vacibliyini göstərir. Yalnız bu cür yanaşma region ölkələrinin təhlükəsizliyini və müstəqilliyini möhkəmləndirə bilər və Cənubi Qafqazda uzunmüddətli və etibarlı sülhün bərqərar olmasına töhfə verər.

Üçünücü fəslin **"Gürcüstanın Samtsxe-Cavaxeti regionunda erməni separatizmi ABŞ maraqlarına təhdid kimi" adlanan üçüncü paraqrafında** Cənubi Qafqaz regionunda daha bir potensial münaqişə ocağının olduğuna diqqət cəlb olunur. Buradakı ermənilərin iddiaları uzun illər ərzində regionun təhlükəsizliyi üçün

---

[38] Improving Prospects for Peace after the Nagorno-Karabakh War: [Electronic resource] / İnternational Crisis Group. – December 22 2020. URL: www.crisisgroup.org/europe-central-asia/caucasus/nagorno-karabakh-conflict/b91-improving-prospects-peace-after-nagorno-karabakh-war

təhdid olmaqla yanaşı, həm də regionda marağı olan Rusiyanın Gürcüstana qarşı təzyiq və təhdid vasitəsi olmuşdur. Bu cür potensial zonalardan istifadə imkanları ilə bağlı regionda maraqları olan dövlətlərin gələcək üçün də müxtəlif planlarının olması istisna deyil. Bu baxımdan Cənubi Qafqazda real etnik münaqişənin yaşana biləcəyi potensial münaqişə bölgəsi olan Samtsxe-Cavaxeti diyarındakı proseslərə diqqət yetirmək zəruridir. Samtsxe-Cavaxetidə separatçı ermənilər tərəfindən irəli sürülən tələblərlə XX əsrin 80-ci illərində Azərbaycanın Qarabağ bölgəsinin dağlıq hissəsi ilə bağlı irəli sürülən tələblər demək olar ki, eynidir.[39]

ABŞ-ın maliyyə dəstəyi ilə Gürcüstanda baş verən "Qızılgül inqilabı"ndan sonra Rusiya-Gürcüstan toqquşması rusların Cənubi Osetiya və Abxaziya ilə yanaşı Cavaxetidə də separatçılara dəstək verməsinin başlıca səbəblərindən biri kimi diqqəti cəlb edir. Bölgə həm də Rusiyanın Qafqazda uzun müddət forpostu rolunu oynamış Ermənistanda "keçid qapısı" hesab olunur.

Cavaxeti ermənilərinə Ermənistan və erməni terror təşkilatları tərəfindən təlqin olunan məqam odur ki, Azərbaycanın iştirakı ilə gerçəkləşdirən neft və qaz kəməri layihələri region ermənilərinin mənafelərinə cavab vermir. ABŞ və Avropanın enerji siyasətinin təmin edilməsi məqsədi ilə həyata keçirilmiş Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum kimi enerji, Bakı-Tbilsi-Qars kimi nəqliyyat layihələrinə də erməni əhalisi düşmən münasibət bəsləyir. Bir çox hallarda öz maraqları naminə ABŞ-ı bölgəyə buraxmamağa çalışan, Avropa İttifaqının isə öz enerji mənbələrini şaxələndirilməsini istəməyən Rusiya yerli əhali arasında təbliğatını populist millətçilik zəminində qurur.

Gürcüstanın daxili və ya xarici münasibətlərində problemlər meydana çıxan kimi, Cavaxetidə gürcülərin əleyhinə olan qüvvələr dərhal fəallaşır. 2020-ci ildə Azərbaycanla Ermənistan arasında baş vermiş 44 günlük Vətən müharibəsi dövründə də Samtsxe-Cavaxeti

---

[39] Həbibbəyli, Ə.İ. Ermənilər Qazfqazda daha bir separatist bölgə yaradır - Gürcüstanın ərazi bütövlüyü təhlükədə - araşdırma: [Elektron resurs] / Strateq, - Bakı, - 2017. URL: http://strateq.az/manshet/220283/ermənilər-qafqazda-daha-bir-separatist-bol-gə-yaradir.html/

diyarında yaşayan ermənilər Gürcüstan dövlətinin əleyhinə fəaliyyətləri ilə seçilmişlər. Belə ki, buradan Ermənistana müxtəlif vasitələrlə yardımlar göndərilmiş, bölgədə qanunsuz "könüllü" dəstələr (əslində isə terrorçu dəstələr) formalaşdırılmış, işğal altında olan Azərbaycan ərazilərində vuruşmaq üçün gəlmişdilər. Bəhs olunan dövrdə bölgə erməniləri Gürcüstandakı müxtəlif ölkə səfirliklərinin, diplomatik korpuslarının qarşısında qanunsuz aksiyalar təşkil edir, təxribatçı addımlar atmaqdan çəkinmirdilər.

Ermənistan hökuməti dəfələrlə bəyanatında Ermənistanın bugünkü hakimiyyəti qarşısında Gürcüstanın ərazi bütövlüyünə dair münasibətdə Cavaxeti məsələsinin olmadığını və onların burada baş verən hadisələrə heç bir təsir göstərmədiklərini qeyd etmişdir. Bu gün belə bir məsələnin qaldırılmasına baxmayaraq, təəssüf ki, bölgədə ABŞ nüfuzunun güclənəcəyi təqdirdə bu məsələnin ortaya çıxarılması istisna deyildir.

**Nəticə** hissəsində tədqiqatın yekun müddəaları ifadə olunmuş və onların əsasında iddiaçı belə qənaətə gəlmişdir ki, ABŞ-ın Cənubi Qafqaz siyasətini daha dərindən təhlil etmək üçün gələcək araşdırmalarda maraq qruplarının, eləcə də xüsusi lobbi qruplarının ABŞ-ın xarici siyasətində roluna dair tədqiqatların aparılması vacibdir. ABŞ-ın Cənubi Qafqaz siyasətini daha dərindən təhlil etmək üçün gələcək tədqiqatlarda beyin mərkəzlərinin sistemli təhlilinin aparılması və xarici siyasətə təsirlərinin öyrənilməsi zəruridir. ABŞ regionda nüfuzunu qorumaq və təsirini artırmaq istəyirsə regionun lider dövləti kimi Azərbaycan Respublikası ilə əməkdaşlığın səviyyəsini yüksəltməli və proseslərə ikili standartlardan yanaşmamalıdır.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı elmi məqalə və tezislərində öz əksini tapmışdır:**


1. Ümummilli Lider Heydər Əliyevin ABŞ diplomatiyasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə yanaşma /Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş "Azərbaycanşünaslığın aktual problemləri" VIII beynəlxalq elmi konfransının materialları. Bakı Slavyan Universiteti. Bakı: Mütərcim, 2017. s.63-65

2. Cavaxetiya münaqişəsi: Cənubi Qafqazda regional təhlükəsizliyə təhdid / Qafqazşünasların I beynəlxalq forumu. Elmi məruzələr 2-ci kitab. Bakı: "MTM-İnnovation" MMC , 2017. s.272-277
3. Conflict of Abkhazia: Historical trends and dynamics of development / I international scientific conference of young researches. Baku Engineering University. Baku, 2017. p.464-465.
4. BMT çərçivəsində Abxaziya münaqişəsinin nizamlanması prosesi / "Qafqaz böyük sarsıntılar şəraitində: tarixi təcrübə, müasir dövr və perspektivlər" mövzusunda respublika elmi konfransının tezisləri. Bakı, 2018. s.16
5. Abxaziya münaqişəsinin tarixi haqqında // Tarix və onun problemləri. BDU. Nəzəri, elmi, metodik jurnal, №1. Bakı: Adiloğlu, 2019, s.196-200
6. XX əsrin 90-cı illərində ABŞ-nin Cənubi Qafqaz münaqişələrində maraqlarının hüquqi əsasları // Bakı: Geostrategiya, 2019. № 01(49), s.73-76
7. The interests of the U.S. in the conflicts in the Republic of Georgia // Gileya, scientific bulletin. Volume 142 (No.3). Part 3. Political sciences. Kyiv, 2019, pp. 21-23
8. XX əsrin 90-cı illərində Abxaziya münaqişəsinin inkişaf dinamikası və ona təsir göstərən amillər / Qafqazşünasların II beynəlxalq forumu. 1-ci kitab. Bakı, 2019. s.204-209
9. Prezident İlham Əliyevin ABŞ diplomatiyasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə yanaşma / Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş "Multikulturalizm və tolerantlıq ideologiyası" II beynəlxalq elmi konfransının məruzələrinin tezisləri. ADU, Bakı: Mütərcim, 2019. s.149-150
10. The causes and dynamics of conflict in Tskhinvali region (1989-2008) / V International Scientific Conference "Politics around the Caucasus". Tbilisi, 2019, p.31-38
11. Azərbaycan Respublikasının Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində çoxtərəfli diplomatik fəaliyyəti (2003-2019-cu illər) // SDU, Elmi xəbərlər, Sosial və Humanitar Elmlər. Sumqayıt, 2020. №1. s.53-58

12. Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin inkişaf dinamikasında eskalasiya dövrü // AMEA Tarix İnstitutu. Elmi əsərlər. Cild 8. Bakı, 2020. s.93-102
13. Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə mane olan amillər // Odlar Yurdu Universitetinin Elmi və Pedoqoji Xəbərləri. Bakı, 2020. № 53, s.140-144
14. Gürcüstanın Abxaziya və Tsxinvali regionlarında vəziyyət: işğal və ərazi məsələləri (2008-ci ildən sonra) // "Cənubi Qafqazda ərazi-sərhəd problemləri: Qars müqaviləsindən Şuşa bəyannaməsinə" mövzusunda respublika elmi konfransı, - Bakı: Mütərcim, 23 sentyabr 2021-ci il. s.88-90
15. ABŞ-ın post-müharibə dövründə Azərbaycana və Ermənistana təsir imkanları və cəhdləri // "Azərbaycan Respublikası 30 ildə: Cənubi Qafqazın güc mərkəzi" mövzusunda respublika elmi konfransı, Bakı: ADMİU-nun mətbəəsi, 14 oktyabr 2021-ci il. s. 122-124
16. ABŞ-ın Qafqaz və Mərkəzi Asiya siyasətində Gürcüstan ərazisindəki münaqişələrə yanaşması // Naxçıvan: "Naxçıvan" Universitetinin Elmi əsərləri, 2021. № 3. s.171-182
17. Theoretical analysis of the place and role of the South Caucasus in the interests of the United States of America // Scientific and theoretical almanac "ГРАНІ", Том 25 № 1 2022. pp.88-92
18. The importance of the Azerbaijan - Turkey partnership in ensuring regional security in the South Caucasus and the position of the United States // VI International Ankara congress on scientific research, April 1-3, 2022, Ankara/Turkey. p.435-441
19. Military-political resolution of the Armenia-Azerbaijan conflict and the interests of the USA // Bakı: Geostrategiya, 2022. № 04(70), pp.27-31

Dissertasiyanın müdafiəsi 27 oktyabr 2022-ci il tarixində saat 11:00-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1001, Bakı ş., Lermontov küç., 74

Dissertasiya ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 26 sentyabr 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanmışdır: 20.09.2022
Kağızın formatı: A5
Həcm: 40369
Tiraj: 100